*AMEA Filologiya və sənətşünaslıq, 2026, № 1* *ISSN 2663-4368*
*Səhifə: 249-254* *E-ISSN 2709-2699*
*https://doi.org/10.59849/2663-4368.2026.1.249*

# Qarabağ əfsanə və rəvayətlərində tayfa və etnik mənsubiyyətlə bağlı yer adları

**İlahə Əsgərova**
AMEA Rəyasət Heyəti Aparatının əməkdaşı
Azərbaycan Texniki Universitetinin müəllimi
E-mail: 87philologist@gmail.com
ORCID iD: https://orcid.org/0009-0005-6531-0688

***Xülasə.*** Azərbaycan xalqının zəngin mənəvi-mədəni irsinin mühüm tərkib hissəsini təşkil edən folklor nümunələri xalqın tarixi yaddaşının, etnik kimliyinin və dünyagörüşünün qorunub saxlanılmasında mühüm rol oynayır. Xüsusilə əfsanə və rəvayətlər xalqın keçmişi, yaşayış məskənləri, tayfa münasibətləri və etnik tərkibi haqqında qiymətli məlumatlar ehtiva edir. Bu baxımdan Qarabağ folkloru özündə həm qədim tarixi hadisələri, həm də bölgənin etnik-mədəni xüsusiyyətlərini yaşadan zəngin mənbə kimi diqqəti cəlb edir.
Folklor mətnlərində rast gəlinən yer adları yalnız coğrafi obyektlərin adını bildirmir, eyni zamanda xalqın etnik yaddaşını məskunlaşma tarixini və sosial münasibətlərini əks etdirir. Qarabağ yer adlarının bir hissəsinin tayfa adları ilə bağlı olması bölgənin qədim etnik mənzərəsinin öyrənilməsi baxımından xüsusi əhəmiyyət daşıyır.
Əfsanə və rəvayətlərdə qorunub saxlanılan yer adları tarixi həqiqətlərin, xalq etimologiyasının və kollektiv yaddaşın daşıyıcısı kimi çıxış edir. Bu mətnlərdə tayfa və etnik mənsubiyyətlə bağlı yer adlarının araşdırılması Qarabağın etnik-mədəni tarixinin daha dərindən öyrənilməsinə, yer adlarının semantik və linqvopoetik xüsusiyyətlərinin müəyyənləşdirilməsinə imkan yaradır.
Məqalədə Qarabağ əfsanə və rəvayətlərində rast gəlinən tayfa və etnik mənsubiyyətlə bağlı yer adları təhlil edilir, onların mənşəyi, semantik xüsusiyyətləri və folklor mətnlərində daşıdığı funksiyalar araşdırılır. Eyni zamanda bu toponimlərin Qarabağın tarixi-etnik mənzərəsinin formalaşmasındakı rolu və xalq yaddaşında yaşadılan məlumatların elmi əhəmiyyəti müəyyənləşdirilir.
***Açar sözlər:*** *Qarabağ folkloru, əfsanə və rəvayətlər, toponimlər, etnotoponimlər, tayfa mənsubiyyəti, etnik kimlik, mədəni yaddaş, linqvopoetika*

**Məqalə tarixçəsi:** göndərilib – 29.04.2026; qəbul edilib – 26.05.2026

# Toponyms Related to Tribal and Ethnic Affiliation in the Legends and Narratives of Karabakh

**Ilaha Asgarova**

***Abstract.*** Folklore, which constitutes an important component of the rich spiritual and cultural heritage of the Azerbaijani people, plays a significant role in preserving historical memory, ethnic identity, and worldview. Legends and narratives, in particular, contain valuable information about the past, settlements, tribal relations, and ethnic composition of the people. In this respect, the folklore of Karabakh stands out as a rich source that preserves both ancient historical events and the ethnocultural characteristics of the region.
The place names encountered in folklore texts do not merely denote geographical locations; they also reflect the ethnic memory, settlement history, and social relations of the people. The fact that a number of Karabakh toponyms are associated with tribal names is of particular importance for the study of the region's ancient ethnic landscape. Preserved in legends and narratives, these place names serve as carriers of historical realities, folk etymology, and collective memory. The study of toponyms related to tribal and ethnic affiliation in such texts contributes to a deeper understanding of the ethnocultural history of Karabakh and helps reveal the semantic and linguopoetic characteristics of these place names.

This article analyzes place names associated with tribal and ethnic affiliation in the legends and narratives of Karabakh, examining their origins, semantic features, and functions within folklore texts. It also explores the role of these toponyms in shaping the historical and ethnic landscape of Karabakh and highlights the scholarly significance of the information preserved in collective memory through folklore.
***Keywords:*** *Karabakh folklore, legends and narratives, toponyms, ethnotoponyms, tribal affiliation, ethnic identity, cultural memory, linguopoetics*

**Article history:** received – 29.04.2026; accepted − 26.05.2026

## Giriş / *Introduction*

Qarabağ folklor mühitində yer adları ilə bağlı əfsanə və rəvayətlərin bir qismi tayfa, nəsil və etnik mənsubiyyətlə əlaqədardır. Bu mətnlərdə kənd, oba, yurd, qışlaq, yaylaq, dərə, təpə və başqa məkan adları müəyyən tayfanın və ya nəslin adı ilə izah olunur. Belə rəvayətlərdə əsas məqsəd yalnız yer adının mənşəyini göstərmək deyil, həm də həmin yerdə yaşayan insanların kimliyini, haradan gəldiyini, hansı tayfaya mənsub olduğunu yadda saxlamaqdır.

Əfsanə və rəvayətlərin mövzu baxımından təsnifində el, tayfa və qövm haqqında mətnlərin ayrıca qrup kimi nəzərə alınması mümkündür. Elnarə Hüseynqızı-Əmirli də Azərbaycan əfsanələrinin sistemləşdirilməsi məsələsindən danışarkən mövzu bölgülərində “tarixi şəxsiyyətlər, el, tayfa və qövm haqqında əfsanələr” qrupunun göstərildiyini qeyd edir [Hüseynqızı-Əmirli, 2023]. Bu baxımdan Qarabağ folklorundakı tayfa və nəsil mənşəli yer adı mətnləri ayrıca məzmun qrupu kimi təhlil oluna bilər.

## Əsas mətn / *Main part*

Qarabağ bölgəsində tayfa və etnik mənsubiyyətlə bağlı mətnlər daha çox köç, məskunlaşma, nəsil yaddaşı, qışlaq-yaylaq həyatı və yerli kimlik motivləri əsasında formalaşır. Bu mətnlərdə tayfanın haradan gəldiyi, nə vaxt gəldiyi, hansı səbəbdən həmin ərazidə yerləşdiyi və sonradan hansı kəndlərə bölündüyü izah olunur. Ona görə də bu tip rəvayətlər həm folklor, həm etnoqrafiya, həm də toponimika baxımından əhəmiyyətlidir.

Qarabağ folklor toplularında Bərdə və Ağcabədi rayonlarının bu baxımdan xüsusi əhəmiyyət daşıdığı qeyd olunur. Çünki bu ərazilərdə kəbirli, afşar, şahsevən, qaradolaq kimi məşhur tayfaların məskunlaşması həmin rayonların şifahi yaradıcılıq baxımından öyrənilməsini zəruri etmişdir [Qarabağ: folklor da bir tarixdir, II kitab, 2012]. Bu fakt göstərir ki, bölgədə toplanmış folklor materialları yalnız nağıl və rəvayət nümunələri deyil, həm də tayfa tarixinin şifahi yaddaşda qalan izləridir.

Tayfa və etnik mənsubiyyətlə bağlı mətnlər içərisində **Boyəhmədli** haqqında rəvayətlər mühüm yer tutur. Boyəhmədli 32 para kəndin yerləşdiyi ərazi kimi təqdim olunur. Rəvayətlərdə həmin bölgədə müxtəlif tayfaların məskunlaşdığı, onların böyük bir qisminin Qazax-Borçalı zonasından gəldiyi söylənilir. Tayfaların bu əraziyə köçü iki səbəblə izah olunur: bir versiyada gürcü basqınları, başqa bir versiyada isə Molla Pənah Vaqifin Qarabağ xanlığına vəzir gəlməsindən sonra xanlığa yaxın olmaq istəyi əsas səbəb kimi göstərilir [Qarabağ: folklor da bir tarixdir, V kitab, 2013].

Boyəhmədli ilə bağlı mətnlərdə ilk gələn tayfa kimi **Qazaxməmmədli** tayfasının adı çəkilir. Daha sonra Şillər, Cırdaxanlılar, Kəpənəkçilər, Əfəndilər, Cənnətlilər, Arabaçılar və başqa tayfaların bölgəyə gəldiyi bildirilir. Son gələn tayfa isə bozax və ya bozok adı ilə xatırlanır. Bu ardıcıllıq təsadüfi deyil. Söyləyici tayfaların gəlişini müəyyən sıra ilə sadalayır və bununla da kəndin sosial-etnik tarixini yaddaşda bərpa edir [Qarabağ: folklor da bir tarixdir, V kitab, 2013].

Bu nümunədə yer adı sadəcə yaşayış məntəqəsinin adı deyil, bütöv bir tayfa sisteminin göstəricisidir. “Boyəhmədli” adı ətrafında müx-

təlif nəsillərin, tayfaların, qohumluq əlaqələrinin və köç yaddaşının toplandığı görünür. Burada məkan tayfaların yerləşmə xəritəsinə çevrilir. Hər tayfanın kənd içində müəyyən yeri, öz tarixi və öz mənşə izahı vardır. Bu da göstərir ki, toponimlər yalnız coğrafi obyektləri deyil, sosial quruluşu da ifadə edir.

Boyəhmədli mətnlərində tayfalar arasında fərqlilik məsələsi də diqqəti cəlb edir. Mənbədə qeyd olunur ki, bu kəndlərin sakinləri həm adət-ənənələrinə, həm də dialekt xüsusiyyətlərinə görə bölgənin digər sakinlərindən müəyyən qədər fərqlənirlər [Qarabağ: folklor da bir tarixdir, V kitab, 2013]. Bu fikir tayfa mənsubiyyətinin yalnız soy-kök məsələsi olmadığını göstərir. Tayfa yaddaşı gündəlik danışıqda, toy mərasimlərində, ailə münasibətlərində, məişətdə və davranış formasında da özünü göstərir.

Bu qrupa daxil olan mühüm nümunələrdən biri də **Təhlə** camaatı ilə bağlı mətnlərdir. Rəvayətə görə, Təhlə camaatı Hacallı, Mehdili, Bəcirəvan, Soğanverdilər kəndlərində və Bərdə şəhərində məskunlaşmışdır. Bu ərazidə yaşayan təhləlilər özlərinə "Xan təhlə" deyirlər. Söyləyicinin verdiyi məlumata görə, Alı, Mehdi, Nəbi və Ağamməd adlı dörd qardaş Pənahəli xandan torpaq istəyir, Pənahəli xan da Bərdədəki Qaratəpə ərazisini onlara qışlaq yeri verir. "Xan təhlə" ifadəsi də bu hadisə ilə əlaqələndirilir (Qarabağ: folklor da bir tarixdir, V kitab, 2013).

Bu rəvayətdə tayfa adı ilə xanlıq dövrü yaddaşı birləşir. "Xan təhlə" ifadəsi təhləlilərin Pənahəli xanla əlaqəsini göstərən bir mənsubiyyət işarəsinə çevrilir. Burada yer adı həm tayfa kimliyini, həm də tarixi-siyasi münasibəti ifadə edir. Eyni zamanda "Xan təhlə" və "Çöl təhlə" qarşılaşdırması da maraqlıdır. Bu bölgü tayfanın müxtəlif ərazilərdə məskunlaşması nəticəsində yaranmış fərqlənməni göstərir.

Təhlə mətnlərində qışlaq motivi xüsusi əhəmiyyət daşıyır. Qışlaq yalnız mal-qaranın saxlandığı yer deyil, tayfanın məskunlaşma tarixinin əsas göstəricisidir. Bir tayfanın hansı qışlaqda yerləşməsi, sonradan həmin ərazidə kənd salması və öz adını həmin yerlə bağlaması toponimik yaddaş yaradır. Bu baxımdan qışlaq-yaylaq həyatı Qarabağ yer adlarının formalaşmasında mühüm rol oynayır.

Tayfa mənsubiyyətli mətnlərdən biri də **Qaradəmirçi** camaatı ilə bağlıdır. Mənbədə qeyd olunur ki, Bərdədə iki Qaradəmirçi kəndi vardır və camaat arasında bu kəndlər "Sacdöyən Qaradəmirçisi" və "Həsirçi Qaradəmirçisi" adı ilə tanınır. Qaradəmirçilər babalarının Qazaxın Dəmirçilər kəndindən gəldiyini söyləyirlər [Qarabağ: folklor da bir tarixdir, V kitab, 2013].

Bu nümunədə yer adı həm peşə, həm də mənşə yaddaşı ilə bağlıdır. "Dəmirçi" komponenti bir tərəfdən sənət-peşə anlamı verir, digər tərəfdən isə Qazax bölgəsi ilə əlaqəni saxlayır. "Sacdöyən" və "Həsirçi" kimi fərqləndirici adlar isə eyni tayfa və ya kənd adının daxilində daha kiçik sosial qrupların ayrıldığını göstərir. Deməli, xalq yaddaşında yer adları bəzən çox incə sosial fərqləri də qoruyur.

Bərdə və Füzuli rayonları ilə bağlı materiallarda **Qılınclı**, **Qaraqoyunlu**, **Qaradəmirçi**, **Boyəhmədli**, **Təhlə**, **Cavanşir** kimi tayfa adlarının çəkilməsi təsadüfi deyil. V kitabın girişində də bu cild üçün Bərdə və Füzuli rayonlarının seçilməsinin səbəblərindən biri kimi həmin ərazilərdə Təhlə, Boyəhmədli, Qaraqoyunlu, Qılınclı, Qaradəmirçi və Cavanşir kimi tayfaların məskunlaşması göstərilir [Qarabağ: folklor da bir tarixdir, V kitab, 2013]. Bu məlumat həmin tayfaların bölgə folklorunun formalaşmasında mühüm rol oynadığını göstərir.

**Minkənd toponimi və tayfa quruluşu ilə bağlı rəvayətlər** Qarabağ folklorunda tayfa və etnik mənsubiyyətlə bağlı yer adlarının öyrənilməsi baxımından maraqlı nümunələrdəndir. Birinci rəvayətdə kəndin adının yaranması tarixi hadisə ilə əlaqələndirilir. Rəvayətə görə, Teymurləng yürüşləri zamanı tabe etdiyi yaşayış məntəqələrini sayaraq irəliləmiş, mininci yaşayış məntəqə bu ərazi olmuşdur. Buna görə də kənd "Minkənd" adlandırılmışdır. Bu izah xalq etimologiyası xarakteri daşıyır və toponimin mənşəyini tarixi şəxsiyyətlə əlaqələndirməklə xalqın kollektiv yaddaşında yaşatdığı təsəvvürləri əks etdirir.

Digər bir rəvayətdə isə Minkəndin etnik və tayfa tərkibi haqqında daha zəngin məlumat verir. Burada Bayandurlu, Novruzlu, Tariqli, Binolu, Kosalar, Şahsuvarlı, Sisyanlı, Xudulu, Zalıqlı, Hüseynlər, Ellazdar, Məlikli, Avazdar və Şeytanlar olmaqla on beş tayfanın adı sadalanır. Bu tayfa adlarının bir qismi sonradan yer adlarının formalaşmasına təsir göstərmiş, bir qismi isə kənd daxilindəki sosial quruluşun izlərini

qoruyub saxlamışdır. Xüsusilə Bayandurlu tayfasının qeyd olunması Qarabağ ərazisində oğuz mənşəli tayfalarla bağlı tarixi yaddaşın folklorda yaşadığını göstərir.

Rəvayətdə Hüseynlər tayfasının İstisudan (Dərələyəzdən) gəlməsi, Şahsuvarın bölgəyə köçürülməsi və Bozdu kəndi ilə yaylaq mübahisələri kimi motivlər tayfaların köç prosesləri, məskunlaşma arealları və qarşılıqlı münasibətləri haqqında məlumat verir. Bu məlumatlar folklor mətnində tarixi fakt kimi deyil, xalq yaddaşında qorunub saxlanılan etnik və sosial təcrübənin ifadəsi kimi çıxış edir.

Beləliklə, **Minkənd** haqqında rəvayətlər yalnız bir yaşayış məntəqəsinin adının izahı ilə məhdudlaşmır, eyni zamanda Qarabağın tayfa quruluşu, məskunlaşma tarixi və etnik tərkibi barədə mühüm məlumatlar ehtiva edir. Bu baxımdan rəvayətlər tayfa və etnik mənsubiyyətlə bağlı toponimlərin semantikasının öyrənilməsi üçün qiymətli folklor materialı hesab oluna bilər [Qarabağ: folklor da bir tarixdir, VI kitab, 2013, s 86].

**Ərəblər kəndi** haqqında rəvayət Qarabağ folklorunda etnik mənsubiyyətlə bağlı yer adlarının yaranmasını izah edən nümunələrdən biridir. Rəvayətə görə, İranda iki tayfa arasında baş vermiş qanlı qarşıdurmadan sonra bir qrup insan doğma yurdlarını tərk edərək Pircahan ərazisinə gəlmişdir. Təhlükəsizlik məqsədilə onlar müdafiə üçün əlverişli olan dağlıq və səngərli bir ərazidə məskunlaşmış, burada yeni yaşayış məntəqəsi yaratmışlar. Sonralar həmin məskən Ərəblər adı ilə tanınmışdır.

Bu rəvayətdə toponimin yaranması müəyyən bir etnik qrupa və ya nəslə bağlanır. Yer adının əsasını təşkil edən "Ərəblər" komponenti həmin icmanın mənşəyi haqqında xalq yaddaşında qorunub saxlanılan məlumatı əks etdirir. Beləliklə, toponim yalnız yaşayış məntəqəsinin adı deyil, eyni zamanda həmin ərazidə məskunlaşmış etnik qrupun tarixi izinin daşıyıcısı kimi çıxış edir.

Rəvayətdə diqqəti cəlb edən məqamlardan biri də köç motividir. Qarabağ folklorunda bir çox etnotoponimlərin yaranması tayfaların və ya nəsillərin müxtəlif səbəblərdən köçərək yeni ərazilərdə məskunlaşması ilə əlaqələndirilir. Ərəblər haqqında rəvayətdə də məhz bu proses öz əksini tapmışdır. Burada yer adı xalqın yaddaşında qorunan köç tarixini və məskunlaşma hadisəsini yaşadır.

Ərəblər toponimi ilə bağlı rəvayət Qarabağın etnik mənzərəsinin formalaşmasında iştirak etmiş müxtəlif nəsil və qruplar haqqında məlumat verən folklor nümunəsi kimi maraq doğurur. Rəvayət göstərir ki, etnik mənsubiyyətlə bağlı yer adları xalqın tarixi yaddaşının qorunmasında mühüm rol oynayır və bölgənin etnik-mədəni tarixinin öyrənilməsi üçün dəyərli mənbə hesab olunur bilər [Qarabağ: folklor da bir tarixdir, VI kitab, 2013, s 102].

Füzuli bölgəsində isə **Cavanşir eli** ilə bağlı yaddaş diqqəti cəlb edir. Mənbədə göstərilir ki, bölgədə əsasən Cavanşir elinə məxsus tayfalar məskunlaşıb. Hətta yaşlı sakinlərin yaddaşında "cavanşir torpağı" ifadəsi qalmaqdadır (Qarabağ: folklor da bir tarixdir, V kitab, 2013). Bu ifadə toponimik baxımdan çox əhəmiyyətlidir. Çünki burada "torpaq" sözü yalnız ərazi mənasında deyil, elin, tayfanın və tarixi mənsubiyyətin göstəricisi kimi işlənir.

"Cavanşir torpağı" ifadəsində məkanla etnik-sosial kimlik birləşir. İnsan həmin torpağı yalnız yaşadığı yer kimi yox, mənsub olduğu elin tarixi məkanı kimi qəbul edir. Belə ifadələrdə torpaq anlayışı maddi-coğrafi məna ilə yanaşı, mənəvi və sosial məna da qazanır. Bu baxımdan Cavanşir eli ilə bağlı mətnlər Qarabağda el yaddaşının toponimlər vasitəsilə necə qorunduğunu göstərir.

Füzuli materiallarında **Hacılı tayfası** haqqında verilən məlumatlar da bu qrupa daxildir. Mənbədə Hacılı tayfasının Cavanşir elinə bağlı olduğu, xanlıq dövründə mahalın naib və minbaşılarının bu tayfadan təyin edildiyi qeyd olunur. Hacılı tayfasından Gecəgözlü, Seyidəhmədli, Mahmudlu, Şıxılı, Comərdli, Aybasanlı, Mirzəcamallı, Sarılar kimi obaların yarandığı göstərilir [Qarabağ: folklor da bir tarixdir, V kitab, 2013].

Bu nümunə tayfa adlarının necə genişlənərək oba və kənd adlarına çevrildiyini göstərir. Bir tayfanın daxilindən müxtəlif obalar ayrılır, həmin obaların adları sonradan yaşayış məntəqələrinin adına çevrilir. Beləliklə, toponimlər tayfa quruluşunun izlərini qoruyub saxlayır. Bu baxımdan Hacılı tayfası ilə bağlı mətnlər nəsil-tayfa sistemindən kənd adlarının yaranmasına keçidi göstərən mühüm nümunədir.

Tayfa və etnik mənsubiyyətlə bağlı mətnlərdə **köçəri həyat tərzi** də əsas motivlərdən biridir. Füzuli rayonunda Arazqırağı kəndlərlə yuxarı kəndlərin eyni adları daşıması bu baxımdan maraqlıdır. Mənbədə Aşağı Yağlıvənd–Yuxarı Yağlıvənd, Araz Dilağarda–Yuxarı Dilağarda, Zərgər–Araz Zərgər kimi kənd adlarının təkrarlanması köçəri həyat tərzi ilə izah edilir. Arazqırağı kəndlər qışlaq, yuxarı hissədəki kəndlər isə yazlaq-yaylaq yeri olmuşdur. Sovet dövründə oturaqlaşdırma nəticəsində əhalinin bir qismi yazlaqda, bir qismi isə Arazqırağında məskunlaşmışdır [Qarabağ: folklor da bir tarixdir, V kitab, 2013].

Bu nümunədə yer adlarının təkrarlanması təsadüfi deyil. Eyni tayfanın və ya camaatın mövsümi hərəkəti iki fərqli məkanda eyni adın yaranmasına səbəb olmuşdur. Bu isə toponimlərin köçəri məişətlə sıx bağlı olduğunu göstərir. Belə adlar tayfanın həm qışlaq, həm də yaylaq yaddaşını qoruyur.

Tayfa və etnik mənsubiyyətlə bağlı rəvayətlərdə **yerli və gəlmə** qarşılaşdırması da müşahidə olunur. Bəzi mətnlərdə tayfanın "gəlmə" olması xüsusi qeyd edilir. Lakin zaman keçdikcə həmin tayfa məskunlaşdığı yerin əsas əhalisinə çevrilir və öz adını həmin yerə bağlayır. Bu prosesdə "gəlməlik" mənfi məna daşımır; əksinə, tayfanın köç tarixini və sosial mövqeyini izah edən yaddaş faktı kimi çıxış edir.

Bu mətnlərdə qohumluq əlaqələri də mühüm yer tutur. Boyəhmədli ilə bağlı rəvayətlərdə bəzi tayfaların bir-biri ilə qız verib-almaması, tayfa sərhədlərinin qorunması kimi məqamlar görünür. Bu, tayfa mənsubiyyətinin yalnız keçmişə aid xatirə olmadığını, sosial münasibətlərdə də rol oynadığını göstərir. Yəni yer adı və tayfa adı ailə münasibətlərinə, evlilik qaydalarına və sosial davranışa təsir edən amil kimi çıxış edir.

Bu qrup mətnlərin semantik xüsusiyyətlərini bir neçə istiqamətdə ümumiləşdirmək olar. Birincisi, bu mətnlərdə yer adı **mənsubiyyət bildirir**. Boyəhmədli, Təhlə, Qaradəmirçi, Cavanşir, Hacılı kimi adlar yalnız məkan adı deyil, həm də "biz kimik?" sualına cavabdır.

İkincisi, bu mətnlərdə yer adı **köç yaddaşını qoruyur**. Tayfanın Qazaxdan, Borçalıdan, Goranboydan, Göyçədən və ya başqa bölgədən gəlməsi məkanın şifahi tarixində saxlanılır. Bu baxımdan rəvayətlər yazılı sənəd olmasa da, xalq yaddaşında qalan köç istiqamətlərini göstərir.

Üçüncüsü, bu mətnlərdə yer adı **sosial quruluşu əks etdirir**. Tayfa, nəsil, oba, qışlaq, yaylaq və kənd adları bir-biri ilə bağlı şəkildə təqdim olunur. Bu da göstərir ki, Qarabağ toponimləri çox vaxt tayfa quruluşu və məskunlaşma sistemi əsasında formalaşmışdır.

Dördüncüsü, bu mətnlərdə yer adı **etnoqrafik informasiya daşıyır**. Adət-ənənə, dialekt fərqləri, toy məclisləri, köçəri həyat tərzi, qohumluq münasibətləri və peşə xüsusiyyətləri bu rəvayətlərin içində qorunur. Ona görə də bu mətnlər yalnız folklor nümunəsi kimi deyil, etnoqrafik material kimi də qiymətlidir.

## Nəticə / *Conclusion*

Nəticə olaraq demək olar ki, Qarabağ folklor mühitində tayfa və etnik mənsubiyyətlə bağlı yer adı mətnləri xalqın sosial yaddaşını qoruyan mühüm mətnlərdir. Bu mətnlərdə məkan tayfanın tarixi ilə, tayfa isə məkanın adı ilə birləşir. Boyəhmədli, Təhlə, Qaradəmirçi, Cavanşir, Hacılı, Qılınclı, Qaraqoyunlu kimi adlar Qarabağda yalnız coğrafi göstərici deyil, həm də nəsil, el, köç və mənsubiyyət yaddaşıdır. Beləliklə, bu tip rəvayətlər Qarabağ toponimlərinin semantik təhlilində mühüm yer tutur.

Araşdırma göstərir ki, tayfa və etnik mənsubiyyətlə bağlı yer adı Qarabağın etnik-mədəni tarixinin öyrənilməsi üçün mühüm mənbələrdən biridir. Bu yer adları folklor mətnlərində yalnız nominativ funksiya daşımır, həm də informativ, tarixi, identifikasiyaedici və linqvopoetik funksiyalar yerinə yetirir. Onlar xalqın özünüidentifikasiya prosesini, məkanla bağlı kollektiv təsəvvürlərini və etnik yaddaşını əks etdirərək folklorun tarixi məlumat daşıyıcısı kimi əhəmiyyətini bir daha təsdiqləyir.

Eyni zamanda, Qarabağ əfsanə və rəvayətlərində qorunub saxlanılan bu yer adları regionun tarixi-coğrafi mənzərəsinin, etnik proseslərinin və mədəni inkişafının rekonstruksiyası baxımından da qiymətli material təqdim edir. Bu baxımdan tayfa və etnik mənsubiyyətlə bağlı

yer adlarının kompleks şəkildə öyrənilməsi təkcə folklorşünaslıq üçün deyil, həmçinin dilçilik, etnoqrafiya, tarix və mədəniyyətşünaslıq sahələri üçün də mühüm elmi əhəmiyyət kəsb edir. Beləliklə, Qarabağ folklorunda yaşadılan bu yer adları xalqın tarixi yaddaşının canlı daşıyıcıları kimi çıxış edir və regionun etnik-mədəni irsinin öyrənilməsində mühüm yer tutur.

**Ədəbiyyat / *References***


1. Qarabağ: folklor da bir tarixdir. (2012). *(II kitab: Bərdə və Ağcabədi rayonlarından toplanmış folklor örnəkləri).* Bakı, Azərbaycan: Elm və təhsil.
2. Qarabağ: folklor da bir tarixdir. (2013). *(VI kitab).* Bakı, Azərbaycan: Elm və təhsil.
3. Qarabağ: folklor da bir tarixdir. (2013). *(V kitab: Bərdə, Füzuli, Ağdam, Şuşa və Zəngilandan toplanmış folklor örnəkləri).* Bakı, Azərbaycan: Zərdabi LTD MMC.
4. Hüseynqızı-Əmirli, E. (2023). *Azərbaycan əfsanələrinin poetikası və süjet göstəricisi*. Bakı, Azərbaycan: Elm və təhsil.